**UOT 008 (1-6)**

**Yeganə Əliyeva**
**kulturologiya üzrə fəlsəfə doktoru, dosent**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Az-1065, Bakı, İnşaatçılar prospekti 39**
**E-mail: eqana-aliyeva@yandex.ru**

# NEOİNDUİZM: NEW AGE MƏDƏNİYYƏTİ QLOBAL İDEYALAR KONTEKSTİNDƏ

**Xülasə**: Məqalədə Qərbdə böyük populyarlıq qazanmış Hindistanın təklif etdiyi New Age ənənələri təhlil obyektinə çevrilib. Məlumdur ki, New Age hərəkatının tərəfdarlarını birləşdirən bir vahid ideya vardır: müasir mədəniyyəti əvəz edəcək Yeni dövr "böyük dəyişikliklər dövrüdür". Bu qlobal ideyanın tərəfdarları iddia edirlər ki, New Age mədəniyyəti mükəmməl mədəni model olaraq bəşəriyyətin inkişafında dini, əxlaqi-mənəvi, təfəkkür tərzi və texnoloji baxımdan böyük sıçrayışlı addım olacaq.

**Açar sözlər**: mədəniyyət, Qərb, Hindistan, qlobal ideya, New Age, neoinduzim.

Müasir tədqiqatçıların əksəriyyətinin fikrincə bəşəriyyəti yaranan qlobal böhrandan posttexniki, postiqtisadi, postmodernist alternativ potensiala malik olan Hindistan qlobal mənəvi islahatlar vasitəsi ilə çıxarmaq iqtidarındadır. Məhz Hind sivilizasiyası çoxəsrlik inkişaf prosesində ənənəviliyi qoruyaraq və modernizasiya proseslərinin obyektivliyini dərk edərək ziddiyyətli situasiyalardan kənarda qala bilmişdir. Hind ideya-fəlsəfi fikri tarixi-varislik prinsipi ilə Vedalar təliminə sadiq qalaraq fikir tarixində daxili ənənə ilə bağlılığı saxlanılmışdır. Burada Qərbdə olduğu kimi dində böhran yaşanmamışdır. Bundan başqa müxtəlif saysız hesabsız dini təlimlər, teoloji təsəvvürlər, fəlsəfi məktəblərlə zəngin Hindistan daim dünyagörüş paradiqmalarının yeniləri üzərində çalışır. Və ən nəhayət, universal induizm kontekstində Hindistan müxtəlif din və konfessiyaların unikal modusunun yaradılmasına müvəffəq olmuşdur. Burada dinlərin harmonik birliyini ifadə edən "həqiqi sivilizasiyadaxili polikonfessional sintez"in baş tutması göz önündədir.(1)

Fransız kulturoloqu Klod Levi-Stross (1908-2009) "Struktur antropologiya" kitabında Şərqin tarixən topladığı humanitar biliyin miqyasına

heyranlığını bildirərək qeyd edirdi ki, Şərq bu mənada Qərb sivilizasiyanı bir neçə min il qabaqlayır. Planetdə yaranmış böhran vəziyyətindən çıxmaq üçün müasir Qərbin Şərq dünyagörüşü modellərinin mənimsəməsini çıxış yolu kimi dəyərləndirirdi. (2) Qərbin elmi fikir nəhəngləri O.Şpenqler, A.Toynbi, D.Medouz, T.Ruzaka, K.Yaspers, O.Xaksli, E.Fromm və s. bu tezisi öz əsərlərində inkişaf etdirmişdilər.

Müasir dövrdə hind intellektualları XXI əsrdə industrial Qərbin maddi-texniki sahədə inkişaf uğurlarının Şərqin unikal özəlliyi hesab olunan dini-əxlaqi təfəkkürə əsaslanan yüksək "mənəvi" və ya "ruhi"(dini) mədəni dəyərləri ilə sintezinin və ya inteqrasiyasının əhəmiyyətini xüsusi vurğulayırlar. Hind intellektualları milli mədəniyyətin modernləşməsinin vasitə və yollarının axtarışlarındadırlar. Maraqlı faktdır ki, bu axtarışlar prosesində müasir Hindistanın təfəkkür sahibləri, alimlər Qərbin "fəlsəfi ideyalar bazarına" istinadı birmənalı qarşılamırlar. Xüsusilə, Hindistanın məhz Qərblə "görüşü" nəticəsində onun təfəkkürünə yeni inam və yeni etik humanizmin təşəkkül tapması barədə avroposentrist tezislə (belçikalı katolik rahib De Smit) və hind filosoflarının qeyri-hind filosoflarını təqlid etdikləri barədə iddialar (alman alimi P.Şrayner) ilə barışmaz mövqedədirlər. Hind təfəkkür sahibləri düşünürlər ki, milli fikir ilk növbədə öz mənəvi resurslarına istinad etməlidir. Bu gün Hindistan qarşısında mühüm məqsəd durur: ənənəvi əsasları qorumaq və müasir ideyaları asssimilyasiya metodu ilə mənimsəmək. Məsələn, 1973-cü ildə keçirilən XV Beynəxalq fəlsəfi konqresdə hind filosofu P.Atreyya günün tələblərinə cavab verən və müasir insana xidmət edəcək "ümumbəşəri fəlsəfə"nin yaradılması ideyasını gündəmə gətirir. O, məruzəsində vurğulayır ki, "biz bütün dünya xalqlarını əhatə edən elm və elmi təfəkkür dönəmində yaşayırıq.... buna görə də, hind fəlsəfəsi Qərb dünyasında bir təəssürat yaratmaq istəyirsə öz ortodoksal xarakterini dəyişməli və elmin təklif etdiyi yeni istiqamətlərdə yeni problemlər üzərində düşünməlidir". Atreyya hind fəlsəfəsinin dini etik-dəyərlərini hind mədəniyyətinin unikallığı kimi vurğulayır və Qərb dünyasına güclü təsir etmək istədiyi halda ona öz ortodoksal problemlərini elmi baxımdan öyrənməyə məsləhət verir.(3)

Müasir Hindistanda mədəni qloballaşma ikitərəfli proses kimi reallaşır. Belə ki, Piter Berqerin "mədəni qloballaşmanın Qərbdən dünyanın müxtəlif yerlərinə əmtəə və ideyaların axınıdı" fikrinə əks olaraq Hindistanda mədəni qloballaşma mədəniyyətlərin dialoqu formasında reallaşır. Belə ki, Tulasi Şrinivasinin təbirincə desək "əgər Hindistana mədəni qloballaşma tendensiyaları daxil olursa, Hindistandan da böyük vüsətlə mədəni qloballaşmanın daha çox modelləri dünyaya axın edir".

Bu gün Hindistan haqqında elmi fikirdə iki stereotip hakim mövqe tututur. Birincilərin fikrincə, Hegeldən gələn ideyaya əsasən Qədim Yunanıstan dövründən Qərb Hindistanın müqəddəs mətnlər külliyatı Vedalara əsaslanan

hind mədəni təcrübəsindən bəhrələnmişdir. İkincilərin qənaətinə görə isə, müasir dövrdə dünya miqyasında induist dəyərlərinin, induits konsepsiyasının fəal təbliğinə xüsusi ehtiyac vardır.

Buna misal olaraq Qərbdə böyük populyarlıq qazanmış "New Age" - müasir mədəniyyəti əvəz edəcək daha mükəmməl mədəni modelin təklif olunmasını göstərə bilərik. New Age hərfi mənada ingilis dilindən tərcümədə yeni era deməkdir. Adətən geniş mənada New Age dedikdə, okkult, ezoterik və sinkretik xarakterli bir çox mistik cərəyan və hərəkatları öz ətrafında cəmləşdirən XXI əsrin dini kimi başa düşülür. Dar mənada isə XX əsrdə yaranmış və bu günə kimi fəal olaraq genişlənən təlim və təcrübədi. XX əsrin 70-80-ci illərində New Age termini Qərbdə, daha dəqiq desək Qərbin kütləvi informasiya vasitələrində və ədəbiyyatında geniş istifadə olunur, XIX əsrdə təşəkkül tapmış bir submədəniyyət kimi isə bu gün pik inkişaf nöqtəsinə çatmışdır .

New Age hərəkatının tərəfdarlarını birləşdirən bir vahid ideya vardır: müasir mədəniyyəti əvəz edəcək Yeni dövr "böyük dəyişikliklər dövrüdür". Bu qlobal ideyanın tərəfdarları iddia edirlər ki, New Age medəniyyəti mükəmməl mədəni model olaraq bəşəriyyətin inkişafında dini, əxlaqi-mənəvi, təfəkkür tərzi və texnoloji baxımdan böyük sıçrayışlı addım olacaq. Dünyanın müxtəlif yerlərində New Age hərəkatının təşkilat və birlikləri dini, kulturoloji, sağlamlıq, maarifləndirici, təhsil və idman qurum və icmaları kimi fəaliyyət göstərirlər.

İkinci dünya müharibəsindən sonra Qərb ölkələrində mənəvi və mədəni böhran yaşanırdı. Cəmiyyətdə kilsə institutuna inamın azalması, məktəblərdə təhsilin deqradasiyaya uğraması, ənənəvi sosial institutların nüfuzundan düşməsi ilə müşahidə olunan tarixi dönəmdə ictimai şüura kənardan, xüsusilə də Şərqdən dini ideya və cərəyanlar daxil olmağa başladılar. İnduizm, buddizm, şamanizm və sair bu kimi dini təlimlər New Age adı altında Qərb cəmiyyətində yaranan mənəvi boşluğu doldumağa başladılar. Müasir “New Age”e dini səciyyədən daha çox ictimai-humanitar "sosial mimekriya" xarakterikdir.

Bu gün Hindistanın təklif etdiyi New Age ənənələri, başqa sözlə yeni dövrün təlimləri və praktikaları olan yoqa, meditasiya, mənəvi sağlamlıq, massaj və tantrizm Qərbdə böyük populyarlığa sahibdir. Hazırda bütün dünya Həyat müəllimləri və ya Quruların təklif etdikləri sosial yaşam modellərinə diqqətini artırıb. Qloballaşma şəraitində induizmin (sanatana dxarama) populyarlığına, onun sərbəst yayılmasına başlıca səbəb digər dini sistemlərdən fəqrli olan kəskin sürətdə müəyyən bir fəlsəfi doqmaya bağlı olmamasındadır. Bu xüsusiyyət induizmin qloballaşma prosesləri fonunda bu və ya digər ideya və mədəni mühitə adaptasiyasını şərtləndirir. İnduizmdə yer alan qenoteizm – ilahilər panteonundan seçilmiş bir Vahid Allaha sitayiş prinsipi qlobal polikonfessional və konfessional-sintetik məkana adaptasiyanı müəyyən edir. Maraqlı faktdır ki, panteonun sərhədləri dini cərəyanın konfessional miqyasından asılı olaraq genişlənə bilər. Qloballaşma prosesində bütün dünya, o cümlədən avraamik

dinlərdən elementlər panteona əlavə olunur. İnduizm panteonunun genişlənməsi daha parlaq induzimin amerikan-avropa modifikasiyalarında (neoinduizm) aydın izlənilir. Misal üçün, tanınmış quru Satya Sai Baba hindlilərin müqəddəsi hesab olunan Şirdili Satya Babanın reinkarnasiyasının və induist İlahiləri Şiva və Şaktinin yer üzündə insan cildində (avatarı) təzahüründən əlavə İsa Məsihin zahir olmasıdır. İnduizmin politeistik tendensiyası aydın şəkildə bu misalda görsənir.

Bu gün elmi ədəbiyyatda neoinduizmin müəyyən ifrat və radikal universalist xarakterli olması barədə srereotip fikirlər formalaşıb. Rusiya Dövlət Humanitar Universitetinin Avropa Mədəniyyətləri Ali Məktəbinin dosenti, dinşünas Boris Knorre Moskva Karneqi Mərkəzinin layihəsi olan "Din və Avrasiya məkanında qloballaşma" məcmuədə dərc olunduğu məqaləsində "universal induizmin qlobal çağırışları" ifadəsinin açıqlamasını verir. Knorreyə görə, qlobal diskursu bir çox məsələlərdə qabaqlayan induist pluralizmi "induist universalizmi" hadisəsini şərtləndirmişdir. Paramaxamsa Ramakrişna, Svami Vivekananda, Şri Aurobindo Qxoşun adları ilə bağlı olan dini-ideoloji hərəkatlar yeni induizmin və ya neoinduizmin təşəkkülünə təkan vermişdirlər. B.Knorre müasir induizmin qlobal məzmununu belə açır: «Ümumilikdə, "universalist induizm" yalnız dini sistem kimi deyil, eyni zamanda mədəni-dəyərlərə əsaslanan dünyəvi dünyagörüş kimi də təqdim oluna bilər. "Universalist induizmin" bu cür kulturoloji aspekti özünü daha parlaq şəkildə onun bütün dinlərin barəbərliyinin etirafında durur, bu isə yalnız bütün dini sistemlərin sintezi ilə reallaşmayan, hətta incəsənət, elm, idman, bir sözlə bəşər mədəniyyətinin bütün sahələrini əhatə edən müəyyən universal biliyə iddia ilə nəticələndi. Məhz bu sintezdə bütün sadalanan sahələr bəşər sivilizasiyası üçün əhəmiyyət daşıyan ali dəyərlər kimi elan olunur» (4,5) Qloballaşma dövrü üçün böyük əhəmiyyət daşıyan bərabərlik, fərdi və ictimai başlanğıcların pariteti, insan azadlığı, mədəni irs və s. ideyalar kimi ümumbəşər dəyərlər "universalist induizmdə" dini aspektdən əsaslandırılmışdırlar.

Bir qədər tarixə istinad edək, XX əsrin 60-70-ci illərində induizm Qərbdə cərəyan edən kontrmədəniyyət hərəkatının ideoloji əsaslarını təşkil etməyə başladı. Hələ o zaman, kontrmədəniyyətin ideologiyası universalist induizmin etik relyativizm, panteizm, mistik eklektizm kimi dini ehkamları ilə harmonik şəkildə səslənirdi. Bunlardan başqa, dini baxımdan haqq qazandırılan şüuraltı impulsların azadlığına gətirən ekstaz, inkişaf etmiş ölkələrdə insanları yormuş sosial normalardan qurtulma, pasifizmə meyillilik bu sıraya əlavə oluna bilər. Məhz buna görə neobuddist liderlər Avropada geniş vüsət almış bitnik, hippi və s. kimi gənclərin kontrmədəniyyət nümayəndələri ilə ümumi dil tapa biliblər.

Neoinduizmin populyarlaşdırılmasının digər formalarından biri də rok-musiqidir. "Transedental meditasiya" cərəyanının müəllifi Maherişi Maheş Yoqa, 1966-ci ildə ABŞ-da Bxaktivedanta Şrila Prabxubatanın təsis etdiyi "Krişna idrakı beynəlxalq cəmiyyəti", rok-musiqiçi Con Mal-Laflinin yaradıcılığını

Aurobindonun inteqral yoqasına əlavə edən quru Şri Çinmoy rok musiqi janrını öz dini təlimlərinin təbliğində uğurla istifadə edə bilmişdirlər. Qərb cəmiyyəti qlobal dialoq fonunda sülhpərvər ideologiyanın işlənilməsində neoinduist ideyalardan geniş istifadə etməkdədirər. Vivekananda, Mahatma Qandi, Aurobindo Qxoşun təklif etdikləri qeyri-zorakılıq, şiddətsiz dünya (aximsa) ideyaları bir tərəfdən Qərbin kontrmədəniyyət cərəyanları (bitnik, hippi və s.), digər tərəfdən isə beynəlxalq siyasətin sülhməramlı strategiyasının ideya əsasını təşkil edir. "Aximsa" ideyası həm pasifistik hərəkatların, həm də ki beynəlxalq siyasətin aparıcı həttinə çevrildi. Bunun nəticəsidir ki, induist dini təriqətlər qismən də olsa öz təkliflərini BMT və YUNESKO-nun proqramlarında nəzərə alınmasına və reallaşmasına nail olmağa imkan əldə etdilər. 1966-ci ildə sülhməramlı xidmətlərinə görə Aurobindo Qxoşun adına Aurovil beynəlxalq şəhərin əsasının qoyulması buna əyani misal ola bilər. 1970-ci ildən isə Quru Çinmoy BMT-nin baş qərargahında "Sülh Meditasiyaları"nı keçirir, bundan əlavə onun ardıcılları ildə 2 dəfə onlarla ölkələrin nümayəndələrinin iştirakı ilə "Sülh qaçış marafonları"nı təşkil edir. Braxma Kumaris – Ümumdünya Ruhani Universiteti Şərqi Asiya ölkələrində qərb formatında qlobal dialoqu reallaşdırır.

Sanatana dxarmanın (induizmin) vətənində də "aximsa" ideyasını qlobal səviyyədə populyarlaşdırmağa məqsəd daşıyan sülhməramlı estafetlər, sülh yürüşləri keçirilir. 2001-ci ilin avqust ayında BMT-nin eqidası altında Nyu-Yorkda keçirilən "Dinlərin sammiti" çərçivəsində Hindistanın Madrasa şəhərindən "Sülh estafeti" start götürərək Amerika, Avropa, Asiya və Okeaniyanın 40 ölkəsindən keçib "şiddətsiz dünya (aximsa)" ideyalarını təbliğ etmək məqsədini tutmuşdur. Misal gətirilən hər bir hadisə induizmin genişmiqyaslı qlobal aksiyalarda iştirakına bir daha dəlalət edir. Hətta Satya Sai Baba, Nirmala Devi Şri Matadji kimi neoquruların dini ayin və meditasiyaları zamanı xaçdan istifadə etmələri Qərbə onların dini ənənələri ilə sintez olunmuş induizmin modifikasiyasını təklif etməsinin bariz nümunəsidir.

Məlumdur ki, induzim arxaik ənənələrlə zəngin etnik dindir. Lakin onun dinamik xarakterli olması onun qlobal diskursda öz sözünü deməyə imkan verir. Bu gün induizm qlobal din statusunu əldə etmək iddiasındadır desək yanılmarıq. İnduizmi qlobal din səviyyəsinə gətirib çatdıran bir neçə amil vardır. Ukraynanın M.P.Draqomanov adına Milli Pedaqoji Universitetinin dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru Olqa Dobrodum "İnduzim və kütləvi mədəniyyət" (2014) adlı məqaləsində (6) induizmin qlobal miqyas almasının səbəblərini aşağıdaki amillərdə görür:

1. KİV və İnternet vasitəsilə neoinduist ənənələrin təbliği, internetdə müxtəlif forum və bloqların fəaliyyət göstərməsi;
2. Asiya və Afrika regionu üçün nəzərdə tutulan Bollivud filmlərinin mövzu təyinatı;

3. Qlobal miqrasiyanın nəticəsi kimi induslar tərəfindən dünyanın müxtəlif güşələrində məskan saldıqları yerlərdə induizmin və induist mədəniyyətinin təbliği;
4. Avropada yoqa və "Qərb induizmin" dəbə salınması: meditasiya və fitness mərkəzlərində millətindən, dinindən, yaşından fərqli olmayaraq insanlar rəqs, müxtəlif praktiki hərəkətlər, mahnı ifası və ya sadəcə susmaq vasitəsilə şüurun idarəolunmasına dair biliklərə yiyələnirlər.
5. Turist şirkətlərinin Hindistan haqqında mifologem təsəvvürlərin yayması;
6. Pop-hinduzim sindromunun geniş yayılması, və ya induizmin asanlaşdırılmış "Lite- Hinduizm" versiyasında təbliği.

İnduizmin modernizasiyası 200 il bundan qabaq başlayıb və neoinduizmdə fundamental şəkildə antropoloji problematikanın işlənilməsi Ram Moxan Rayın adı ilə bağlıdır. Daha sonra antropoloji problem dinamik şəkildə Svami Vivekanandanın təlimində geniş yer alır. Vivekananda tarixi inkişafın yeni üfüqlərini Qərb və Şərq mədəniyyətlərinin inteqrasiyasına oriyentasiyada görür. Beləliklə, yeni mərhələdə göstərilən axtarışlar induizmi din kimi deyil mənəvi dəyərlərə söykənən və Həyat yolunu görsədən mədəniyyətin xüsusi bir forması kimi dərk etməyə əsas verdi. Hind mədəniyyəti məhz öz dini-fəlsəfi bünövrəsinə arxalanaraq maddi rifaha üstünlük verən Qərbin rastlaşdığı insanın mənəvi-əxlaqi böhranı problemindən yan keçə bilib. Razılaşmaq olar ki, Hind mədəniyyəti qloballaşma problemləri konteksində ehtiyac duyulan şəxsiyyətın yaşamı üçün vacib olan müdriklik, dözümlülük, qeyri-zorakılıq, stabillik kimi xüsusiyyətlərin qenerasiyasını həyata keçirir.

Məlum olduğu kimi qloballaşma heç də hamar keçən proses deyildir, qloballaşmanın yolunda ziddiyyətli və böhranlı vəziyyətlər də yaranır. Ziddiyətli vəziyyət dedikdə qloballaşmanın bir tərəfdən təklif etdiyi obyektiv unifikasiya tendensiyaları, digər tərəfdən isə bu durumda hər bir xalqın mədəni və konfessional bünövrəsi ilə diktə olunan özünəməxsusluğunu qoruyub saxlamaq niyyətini nəzərdə tuturuq. Hələ ziddiyyətli vəziyyətlərə düşməzdən əvvəl dünyaya ilk qlobal birləşmə ideyasını təklif edən məhz Hindistan oldu. 1893-cü ildə Çikaqoda keçirilən Ümumdünya Dinlərin Parlamentində bəşər sivilizasiyasının vahidliyi barədə Vivekananda "advayta təbili" çaldı. İlk dəfə olaraq Vivekananda mütləq monizmi nəzərdə tutan "advayta" anlayışını dini kontekstdən çıxararaq bəşəriyyəti birliyə aparan real yollar barədə indinin özündə belə davam edən söhbəti açmışdır.

Neoinduizmin gündəmə gətirdiyi problemlərdən biri də sivilizasiyaların, mədəniyyətlərin və dinlərin harmonik birgəyaşayış mövzusudur. Hindistan real təcrübədə konkret proqramlarla və əməli tədbirlərlə bəşəriyyətin yaxınlaşmasına xidmət edən addımlar atmaqdadır. Bu gün Hindistan ənənəvi dünyagörüş sərhədlərini aşaraq Qərb və Şərq mədəniyyətlərinin qnoseoloji və dəyər prinsiplərinin sintezinə nail olmaq özünə məqsəd kimi təyin edib.

**Ədəbiyyat:**

1. Воронина М.В. Объединяющий потенциал индуизма// ВЕСТНИК КОСТРОМСКОГО ГОСУДАРСТВЕННОГО УНИВЕРСИТЕТА ИМ. Н.А. НЕКРАСОВА
   Издательство: Костромской государственный университет им. Н.А. Некрасова (Кострома)
2. Леви-Строс К. Структурная антропология / Пер. с фр. Вяч. Вс. Иванова. — М.: Изд-во ЭКСМО-Пресс,2001.—512с.(Серия«Психология без границ»).//http://yanko.lib.ru/books/cultur/stross_struktur_antrop.htm
3. Литман Ю.В. Современная индийская философия. Стр 360
4. Кнорре Борис. Индуизм: от глобальной адаптации — к альтернативному глобалистскому проекту//РЕЛИГИЯ И ГЛОБАЛИЗАЦИЯ НА ПРОСТОРАХ ЕВРАЗИИ //
   https://carnegieendowment.org/files/12289RG_blok.pdf., 258стр.
5. Кнорре Борис. Индуизм: от глобальной адаптации — к альтернативному глобалистскому проекту//РЕЛИГИЯ И ГЛОБАЛИЗАЦИЯ НА ПРОСТОРАХ ЕВРАЗИИ //
   https://carnegieendowment.org/files/12289RG_blok.pdf., 262 стр.
6. Добродум О.В. Индуизм и массовая культура// STUDIA CULTURAE. Издательство: Санкт-Петербургское философское общество . № 21, 2014, стр. 115-125 //
   https://elibrary.ru/download/elibrary_24141294_72104012.pdf

**Егяна Алиева**

**Неоиндуизм: культура New Age в контексте глобальных идей**

**Резюме**

В данной статье автор исследует традиции новой модели сосуществования человечества «New Age», идеи которой пользуются большой популярностью на Западе. Известно, что сторонники движения New Age считают, что грядет время «Новой эры». Сторонники данной глобальной идеи уверенны, что культура New Age, как совершенная модель культуры, сыграет значительную роль в развитии общества.

**Ключевые слова**: культура, Запад, Индия, глобальная идея, New Age, неоиндуизм.

**Yegana Aliyeva**

**Neo-Hinduism: New Age culture in the context of global ideas**

**Summary**

In this article, the author explores the traditions of the new model of human coexistence "New Age", the ideas of which are very popular in the West. It is known that supporters of the new Age movement believe that the time of a "New era"is coming. Supporters of this global idea are confident that new Age culture, as a perfect model of culture, will play a significant role in the development of society.

**Keywords**: culture, West, İndia, global idea, New Age, neo-Hinduism.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 15.06.2019**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 21.06.2019**
**Məqalənin çapa qəbul olunma tarixi: 03.07.2019**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: fəlsəfə üzrə elmlər doktoru, professor Niyazi Mehdi**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2019-cu il, 09 saylı qərarı ilə çap olunur**.